# Norveç qəzetində COP29 və Ermənistanla Azərbaycan arasında münaqişə haqqında məqalə dərc edilib

**Norveçin "Geopolitika" qəzetində ölkəmizin Norveç, İsveç, Finlandiya və Danimarkadakı səfiri Zaur Əhmədovun noyabrda Azərbaycanda keçiriləcək COP29, eləcə də Ermənistanla Azərbaycan arasında 30 illik münaqişəyə həsr olunmuş növbəti məqaləsi dərc edilib.**




AZƏRTAC xəbər verir ki, Azərbaycanda COP29-un keçirilməsinin tənqidçilərinə cavab olaraq Zaur Əhmədov məqaləsində bu ittihamlara daha geniş geosiyasi kontekstə məhəl qoyulmadığını, Azərbaycanın iqlim dəyişmələri ilə mübarizə və Cənubi Qafqazda sülhün təşviqi istiqamətindəki səmimi səylərinin gözardı edildiyini bildirir, böyük beynəlxalq tədbirə evsahibliyi etməklə bağlı standartın bütün ölkələrə eyni dərəcədə tətbiqinin vacibliyini vurğulayır.

Diplomat Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizinin Ermənistan tərəfindən işğalı, bütün şəhər və kəndlərimizin dağıdılması, 700 minə yaxın azərbaycanlının öz yurd-yuvasını tərk etməyə məcbur qalması ilə nəticələnmiş Ermənistan-Azərbaycan münaqişəsini xatırladıb. Mülki əhali üçün təhlükə yaradan təqribən 1,5 milyon minanın işğalın acı nəticəsi olduğunu bildirib. Qeyd edib ki, minaların təmizlənməsi böyük maliyyə vəsaiti və zaman tələb edir.

Diplomat, həmçinin 2023-cü ilin sentyabrında Qarabağda antiterror tədbirlərindən sonra ermənilərin oranı könüllü surətdə tərk etmələrindən yazıb. Bildirib ki, bəzi tənqidçilər bunu "etnik təmizləmə" kimi qiymətləndirir, lakin 1980-ci illərin sonunda 300 minə yaxın azərbaycanlı Ermənistandan zorla qovulmuşdu. Bu tarixi fakt münaqişənin humanitar aspektlərinin müzakirəsi kontekstində mühüm rol oynayır.

"Azərbaycan ilə Ermənistan arasında sülh prosesində artıq nailiyyətlər əldə edilib və sülh sazişinin mətninin təxminən 80 faizi razılaşdırılıb. Lakin Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını öz konstitusiyasından çıxarmaqdan imtina etməsi ciddi maneə olaraq qalır. Buna baxmayaraq, Avropa Sülh Fondu kimi qüvvələr tərəfindən dəstəklənən Ermənistanın davamlı surətdə hərbiləşdirilməsi münaqişənin yenidən başlanması riski ilə bağlı narahatlıq doğurur. Bu, revanşist əhval-ruhiyyəni gücləndirir və sülh prosesinə xələl gətirir", - deyə səfir əlavə edib.

O, həmçinin vurğulayıb ki, Azərbaycan xarici siyasətdə ardıcıl olaraq çoxtərəfli yanaşmaya sadiqdir, bütün qonşularla balanslaşdırılmış münasibətlər saxlayır. Ölkəmiz BMT Təhlükəsizlik Şurasına üzvlüyü və Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində beynəlxalq təhlükəsizliyə və sülhə mühüm töhfələr verib. Bu balanslaşdırılmış yanaşma bəzi region ölkələrinin uzunmüddətli hərbi ittifaqlardan asılılığı və onların ərazilərində xarici bazaların olması ilə ziddiyyət təşkil edir.

Zaur Əhmədov onu da diqqətə çatdırıb ki, Azərbaycan mühüm qazıntı yanacaq istehsalçısı olmasına baxmayaraq, bərpaolunan enerjiyə keçməyə çalışır, eyni zamanda karbon emissiyalarının azaldılması öhdəliyini vurğulayaraq, 2030-cu ilə qədər ümumi enerji tarazlığında bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı qarşısına məqsəd qoyub.

Sonda diplomat əlavə edib ki, COP29 bütün tərəflər, o cümlədən Ermənistan üçün iqlim dəyişmələri kimi aktual qlobal problemlərdə əməkdaşlıq üçün nadir imkandır.

"Tənqidçilər mənfi ittihamlar yaymaq əvəzinə, COP29-u ümumi iqlim məqsədlərinə nail olmaq üçün qüvvələri birləşdirmək şansı kimi görməlidirlər", - deyə məqalədə qeyd olunur.

Azərbaycan.- 2024.- 13 oktyabr (№ 225).- S.7.